***MUSİQİNİN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ***
***METHODS OF TEACHING MUSİC***

*UOT 372.878*

# MUSİQİ FƏNNİNİN TƏDRİSİ PROSESİNDƏ MƏNƏVİ TƏRBİYƏ VƏ İNSANİ DƏYƏRLƏRİN AŞILANMASI

**Rəqsanə İsmayıl qızı Məmmədova**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun fəlsəfə doktoru proqramı üzrə doktorantı*
**ORCİD:** 0009-0008-7316-4539
**E-mail:** raqsanamva@gmail.com

***Açar sözlər:*** *xalq musiqiləri, uşaq mahnıları, estetik tərbiyə, musiqi dərslikləri, əxlaqi-mənəvi tərbiyə.*

***Ключевые слова:*** *Ключевые слова: народная музыка, детские песни, эстетическое воспитание, учебники музыки, нравственно-этическое воспитание*

***Key words:*** *folk music, children's songs, aesthetic education, music textbooks, moral and ethical education*

Tərbiyə qədimdən ümumi anlayış olub, müasir şəraitdə onun yenidən tərbiyə və özünütərbiyə sahələri üzrə təkmilləşdirilməsinə də ehtiyac var. İslamda tərbiyə baxımından uşağın inkişafı iki dövrə bölünür: tədbiri və tətbiqi dövr.

Tədbiri dövrdə tərbiyə – uşağın ana bətnindən başlayıb həyatı boyunca davam edən uzunmüddətli bir prosesidir. Tətbiqi dövr isə uşaqların (adamların) doğuluşundan ölənə qədər olan dövrünü əhatə edir. Bu dövrdə şəxsin yaşına, gücünə, fərdi, psixoloji xüsusiyyətlərinə, fiziki sağlamlığına, qabiliyyətinə uyğun olaraq, onun şüuruna, hisslərinə və davranışına təsir göstərilir. Bu tərbiyəvi təsirlər tədricən onu dəyişdirir, formalaşdırır, kamilləşdirir. Hava və qidadan sonra vücudunuzun ən çox ehtiyac duyduğu üçüncü amil təlim-tərbiyədir. Tərbiyə əqlimizin ilkin özəyidir [1].

Musiqi dərslərində bir sıra tərbiyə sahələri işlənir: əmək, musiqi, əxlaq və mənəviyyat, fiziki, iqtisadi, ekoloji və hüquq tərbiyəsi və s. Pedaqoji ədəbiyyatda əxlaqi-mənəvi tərbiyə anlayışı, insan davranışının müxtəlif sahələri ilə sıx bağlı olduğu vurğulanır. Musiqi, əxlaqi və mənəvi dəyərlərin inkişafına mühüm təsir göstərə bilən bir vasitədir, çünki musiqi, ətraf aləm, insanlar və həyat haqqında dərin mənalar və mesajlar verir.

Azərbaycanın milli əxlaqi-mənəvi dəyərləri, musiqi zövqünün formalaşmasında vacib rol oynayır. Xalq musiqisinin nümunələri, xüsusilə xalq mahnıları, rəqslər və aşıq musiqisi, xalqın yüksək mənəviyyatını, arzularını və istəklərini əks etdirir.

Musiqi, əxlaqi və mənəvi dəyərlərin aşılanmasında çox güclü tərbiyəvi bir vasitədir. Buna görə də, bütün təhsil pillələrində, o cümlədən məktəbəqədər təhsil müəssisələrində, musiqi məktəblərində və ali məktəblərdə musiqi düzgün şəkildə tədris olunmalıdır. Bu məqsədlə, tədris prosesində düzgün musiqi nümunələrinin seçilməsi çox önəmlidir. Musiqi fəaliyyəti, musiqi dinləmək, mahnı oxumaq və musiqili-ritmik hərəkətlərin hər biri, uşaqların şüuruna və əxlaqi-

mənəvi inkişafına təsir göstərir. Musiqi, estetik tərbiyə vasitəsi olaraq, uşaqların hissləri ilə birbaşa əlaqəyə girir və onlarda musiqi zövqü formalaşdırır.

Musiqi təhsili əxlaqi-mənəvi dəyərlərin aşılanmasının, eləcə də estetik tərbiyənin vacib hissəsidir. Respublikamızın məktəbəqədər tərbiyə müəssisələrində və həmçinin I-IV siniflərində musiqi fənləri tədris olunur. Bu sahədə kurikulum və dərsliklərdə konkret məzmun verilmiş, musiqinin konkret sahələri üzrə işlərə vaxt ayrılmışdı.

Uşaq mahnıları bu işdə daha çox səmərə verir. Uşaq mahnıları vasitəsilə əxlaq və mənəviyyat tərbiyəsinin yollarından geniş istifadə olunur. Kiçikyaşlı uşaqların əxlaq və mənəviyyat yönlü təhsil və tərbiyə işində musiqinin rolu böyükdür. Bu məsələlər üzrə optimal məzmun və tərbiyə şəxsiyyətin inkişafının bütün mərhələlərində həyata keçirilir. Bədii zövqün orta məktəb dövründə formalaşmasına baxmayaraq onun əsası ibtidai siniflərdə qoyulur. Uşaqların musiqi tərbiyəsində musiqi dərslərinin rolu çox böyükdür. Çünki musiqi dərslərində minlərlə öyrənən təhsil alır, onlara estetik, əxlaqi və mənəvi tərbiyə sahəsində praktik bilik və bacarıqlar aşılanır. I-IV siniflərdə musiqi tərbiyəsi iki yolla həyata keçirilir: sinifdə tədris edilən musiqi dərslərində və kütləvi tədbirlərdə. Bu fənn vasitəsilə onlar Azərbaycan peşəkar musiqi sənətinin yaradıcısı dahi Üzeyir Hacıbəylinin timsalında Azərbaycan musiqisilə (buraya həm ənənəvi musiqi, həm klassik musiqi və həm də bəstəkar əsərləri aiddir), eləcə də Qlinka, Çaykovski, Motsart, Bethoven kimi rus və Qərbi Avropa klassik bəstəkarlarının əsərləri ilə tanış olurlar.

Buradan bir daha aydın olur ki, I-IV siniflərdə öyrənənlərin musiqi tərbiyəsi vasitəsilə əxlaq və mənəviyyat yönlü təhsil və tərbiyə xüsusi rol oynayır. Görkəmli pedaqoqlar tərəfindən öyrənənlərin bədii zövqü ilə yanaşı əxlaq və mənəviyyata qida verən işlər görülür. Qəlbin, ruhun qidalanmasında əhəmiyyətli işlər daim yüksək dəyərləndirilir. Təkrar edirik, I-IV siniflərdə musiqi tərbiyəsi üzrə təkcə öyrənənlərin estetik tərbiyəsində deyil, həmçinin əqli, əxlaqi və fiziki tərbiyəsində də musiqi mühüm rol oynayır.

Görkəmli psixoloq B.M. Teplov musiqinin estetik qavranılmasını aktiv fəaliyyət kimi qiymətləndirmişdir. Estetik tərbiyə məsələləri ilə məşğul olmuş B.V. Asafyev isə musiqini təbiətdə və insan qəlbində səslənən gözəl nə varsa, hamısının "daim canlı təcəssümü" adlandırmış və musiqi ilə yalnız əyləndirməyə, onu dinləyicilərə zorla qəbul etdirməyə deyil, həm də musiqi vasitəsilə inandırmağa güclü stimul yaratdığını bildirir.

Öyrənənlərə ümumi musiqi tərbiyəsi vermək, onları yüksək musiqi sənətinə hazırlamaq, ən yaxşı xalq, klassik Azərbaycan musiqisi, habelə, müasir bəstəkarların əsərləri nümunəsində hiss və duyğularını, eşitmə, dinləmə, başa düşmə, zövqlərini hərəkətə gətirmə, gələcəkdə bu imkanlarını daha da genişləndirmə böyüməkdə olan müasir nəslin əxlaqının, mənəviyyatının dövrün tələbləri baxımından təkmilləşdirilməsinə kömək göstərmək əvəzsiz qiymətdir. Musiqi-estetik tərbiyə işinin istiqamətləri bunlardır. Eyni zamanda, musiqi tədrisində əsas məqsəd, öyrənənlərdə yaradıcılıq qabiliyyətini üzə çıxartmaq, musiqi bacarıqlarını inkişaf etdirmək və formalaşdırmaq, keyfiyyətli musiqiyə maraq oyatmaqdır.

I-IV siniflərdə tədris olunan dərs vəsaitləri də məhz buna xidmət edir.

Qeyd etdiyimiz kimi, musiqinin tədrisi iki istiqamət üzrə — yaradıcılıq və təcrübə əsasında aparılır. Bu iki istiqamət öyrənənin yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsinə yardım edir. Bu zaman öyrənən musiqi ifadəsinin müxtəlif forma və ifadə üsullarına yiyələnir: o, mahnı oxuyur, rəqs edir, çalğı alətində çalır, teatr etüdləri və səhnəcikləri oynayır, rəsm çəkir, mətn yazır, musiqi bəstələməyə çalışır. Bütün bu proseslər zamanı öyrənənlərdə musiqi duyumu və

yaddaşı, ritm hissi inkişaf edir. Ritmik-intonasiya məşğələlərinin keçirilməsi ritmin inkişafına səbəb olur. Öyrənən səsi, metri, tempi, registri, dinamik nüansları bir-birindən fərqləndir, musiqi yazısını öyrənir və onlardan istifadə etməyi bacarır.

İndi informasiya dövrüdür. Bu baxımdan dərs zamanı öyrənən informasiya — kommunikasiya texnologiyalarından (İKT) istifadə etməyi də bacarmalıdır. Musiqinin kontekstdə qavranılması və interpretasiyası məsələsi haqqında danışarkən qeyd edilir ki, kommunikasiya dili olaraq tanınan musiqi çoxnövlü və çoxdəfəli interpretasiya imkanını verir. Öyrənən musiqi barədə əldə edilmiş məlumatı mühit, gündəlik hadisələr və öz təcrübəsi, həmçinin digər fənn intizamları ilə əlaqələndirir.

Musiqini dünyanın bir hissəsi kimi, qavrayır, tədqiq edir və səsin yaranma mənbələrini müşahidə edir, səsli dünya, musiqi ilə kommunikasiyaya-musiqini dinləməyə, musiqi və performansını qiymətləndirməyə, fikri aydın şəkildə ifadə etməyə, mübahisə, müzakirə zamanı uyğun terminologiyadan istifadə etməklə, kitab dili və davranış normalarına riayət etməklə öz mülahizəsini əsaslandırmağa alışır. Mübahisə və müzakirə zamanı öyrənən dərk edir ki, musiqi bütün zaman və xalqların mədəniyyət və məişətinin ayrılmaz hissəsidir.

Bildiyimiz kimi, artıq neçə illərdir fəaliyyət göstərən təhsil sisteminin yeni milli kurikulum sistemində musiqi kurikulumu da vardır. Bu fənn mühüm konsepsiya kimi irəli sürülmüş və sistemdə yer tutmuşdur. Çünki musiqi öz emosionallığı ilə insan psixologiyasına təsir edərək, mənəvi ehtiyacı qarşılayır.

Bir daha vurğulamaq istərdik ki, I-IV siniflərdə musiqi təliminin əsas məqsədi milli və bəşəri sənət nümunələri əsasında öyrənənlərdə musiqi mədəniyyətinin formalaşdırılması və inkişafını təmin etməkdən ibarətdir. Bu gün I-IV siniflər üçün istər nəzəri, istərsə də praktik materialları özündə ehtiva edən "Musiqi" dərslikləri vardır.

I sinifdə musiqi aləmi, musiqi duyumları, mahnı, marş, rəqs, melodiya, ritm, könül açan nəğmələr, repertuar, II sinifdə şən, əmək üzrə mahnılar, melodiya və intonasiya, manjor və minor rəqsləri, musiqi məzmunu və obrazlar III sinifdə sadə musiqi formaları, zərb, nəfəs və milli alətlər, IV sinifdə isə Azərbaycan xalq mahnıları, xalq rəqsləri, dünya xalqlarının musiqiləri və s. üzrə işlər aparmaq imkanları yaradılır. Öyrədən bu imkanlardan istifadə edərək öyrənənlərin əxlaqi, mənəviyyatı sahəsində səmərəli fəaliyyət göstərir. Lakin musiqi fənninin daha keyfiyyətli tədrisi üçün öyrədən dərsliklə yanaşı, yeni metodikalardan, not müntəxəbatlarından, müasir elektron dərsliklərdən istifadə edilir [2].

Respublikamızda təhsil sahəsində baş verən islahatlar cəmiyyətimizdə yeni insanın hərtərəfli inkişafına, onun mənəvi cəhətdən yetkinləşməsinə yönəlmişdir. Belə insanın yetişdirilməsi lap erkən yaşlarından başlanmalıdır. Bu işdə musiqi tərbiyəsinin də çox böyük əhəmiyyəti vardır. Uşaqlarda musiqiyə sevgi hisslərini, yüksək bədii zövqü, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək üçün dövlətimiz uşaq bağçalarında və digər tədris müəssisələrində musiqi tərbiyəsinə geniş yer vermişdir.

Uşaqlarda musiqi qabiliyyətinin inkişafı obyektiv musiqi fəaliyyətinin nəticəsində baş verir. Fəaliyyət dedikdə biz ictimai təcrübənin, mədəniyyətin nailiyyətlərinin fəal mənimsənilməsi prosesini nəzərdə tuturuq. Bütün həyatı boyu insan müxtəlif fəaliyyət növlərini mənimsəyir ki, bunun nəticəsində onda müəyyən şəxsiyyət keyfiyyətləri formalaşır.

I-IV siniflərdə öyrənənlərin musiqi fəaliyyəti – bu uşaqlar tərəfindən musiqi sənətinin (və dolayısı yolla ətraf həyatın və özü-özünün) müxtəlif üsullarla mühüm idrakı vasitələr kimi çıxış

edir. İlk gündən öyrənənlərin musiqi fəaliyyəti gənclərin insani xarakterlərinin, insanların ümumi mədəniyyətinin inkişafına və formalaşmasına, həmçinin onların üzə çıxmasına kömək edir. Əxlaq və mənəviyyatyönlü təhsil və tərbiyənin keyfiyyətlərini yüksəldir.

I-IV siniflərdə musiqi fəaliyyəti şərti olaraq üç komponentdən ibarətdir: musiqini dinləmə və qavrama, mahnı oxuma və musiqili-ritmik hərəkətlər (rəqs, oyun). Sözsüz ki, burada digər fəaliyyətlərin də (məsələn, sadə alətlərdə ifa və s.) yer alması mümkündür, lakin əsasları – dediyimiz bu üç fəaliyyət növüdür [2].

Biz yuxarıda da qeyd etdik ki I-IV siniflərdə musiqi fəaliyyətlərindən biri və demək olar ki, ən başlıcası musiqini dinləmə və qavramadır. Musiqini dinləyərək qavrama bacarığını biz mühüm hesab edirik, çünki qavrama baş verməzsə, nə mahnı oxuma, nə rəqs, nə də digər musiqi fəaliyyətləri mümkün olmaz.

Musiqi dinləmə aktiv düşünmənin əsasıdır. Musiqi dinləmə bölməsi uşaqları bir çox hadisələrlə, böyüklərin əməyi ilə və uşaq bağçalarında tərbiyə alan uşaqların həyatı ilə tanış edir. Buna görə də musiqi dinləmə bölməsi uşaqların estetik tərbiyəsinə də böyük təsir göstərir.

Bəstəkar bəstələdiyi musiqi əsərləri vasitəsilə uşaqlara bizi əhatə edən xarici aləmin gözəlliyi haqqında məlumat verir. Əxlaqi-mənəvi dəyərləri mənimsəmələrinə geniş imkanlar açır. Musiqinin qavranılması əqli proseslərlə sıx bağlıdır. Belə ki, o diqqətlilik, düşüncə tələb edir. Uşaq əsəri dinləyərək, onun xarakterini təyin edir, musiqi ilə əlaqələndirir. Bu istiqamətdə iş düzgün aparıldıqda, hətta 3-6 yaşlı uşaqlar şən, sakit, mülayim, oynaq musiqini, yüksək, alçaq, uca, yavaş səsləri, melodiyanı, hansı alətdə çalındığını ayırd etməyi bacarırlar. Onlarda musiqi təəssüratı getdikcə daha da genişlənir. Musiqi haqqında aldıqları biliklərdən istifadə edərək öyrənənlər nəinki suallara cavab verməyi, hətta, musiqi əsərlərinin xarakterini müstəqil olaraq təyin etməyi bacarırlar.

Mahnı oxuma kimi müəyyənləşdirilən musiqi fəaliyyəti öyrənənlərin səs aparatını inkişaf etdirir, nitqini təkmilləşdirir, düzgün duruşu, qaməti formalaşdırır, nəfəs almanı dərinləşdirir. Onların tərbiyə işində mahnı əsas yer tutur, qulaq asmağı çox sevirlər. Mahnı öyrənənlərin əhval-ruhiyyəsinə çox böyük təsir göstərir, onların ürəyini açır və şənləndirir. Mahnı oxumaqla uşaqların eşitmə və danışma qabiliyyətlərini inkişaf etdirmək, uşaqları sakitləşdirmək, şadlandırmaq olar. Mahnı oxuyarkən öyrənənlərin qışqırmaqlarına yol vermək olmaz. Uşaqlar bərkdən oxuduqda öz zərif səs tellərini zora saldıqları üçün onları zədələyə bilərlər. Uşaqlar alçaq, əlverişli tonda oxumalıdırlar. Mahnı oxuma öyrənənləri birliyə, mehribanlığa, dostluğa, düzgünlüyə öyrədir, onları mütəşəkkil edir və birləşdirir. Əxlaqi-mənəvi dəyərləri mənimsəmələrinə qida verir.

Mahnı oxuma ən mühüm musiqi fəaliyyəti olduğundan buna ciddi fikir vermək lazımdır. Mahnını oxuduqda və danışıq zamanı uşaqların səsinin mühafizə edilməsinə diqqət yetirmək lazımdır. Öyrənənlərin səsi öz həcminə görə məhduddur. Mahnılar əsasən onların səsinə uyğun olaraq qurulur.

Digər bir musiqi fəaliyyəti — musiqili-ritmik hərəkətlərin ifasıdır. XX əsrin əvvəllərində bir çox ölkələrdə İsveç musiqişünas və pedaqoqları ritmik təlim sistemini geniş yaymışlar. Onların metodu bundan ibarətdir ki, məşq üçün seçilmiş xüsusi tapşırıqlardan istifadə edərək I-IV siniflərdən başlayaraq musiqi eşitməni, yaddaşı, diqqəti, ritmiliyi, hərəkətin plastik ifadəliliyini inkişaf etdirmək lazımdır.

Öyrənənlərin musiqi qabiliyyətlərinin inkişaf eşitməsinin təkmilləşməsi prosesindən və öz

hərəkətini musiqi ilə uyğunlaşdırmaq bacarığından asılıdır. Bu bacarıqların uşaqlar üçün maraqlı olan və asan başa düşülən formalarından: oyunlardan, ritmik hərəkətlərdən və s. başlamaq lazımdır. Musiqi əsərlərinin təsiri altında uşaqlarda emosional hisslər və müəyyən əhval-ruhiyə yaranır və bu hərəkətlərin münasib xarakteri imkan yaradır. Hərəkətlər musiqi əsərinin daha dolğun qavrayışına kömək edir. Bu da öz növbəsində hərəkətlərdə xüsusi ifadəlilik yaradır. Öyrənənlərdə estetik zövq aşılamaqla, əxlaqi-mənəvi hisslər oyadır.

Musiqili ritmik hərəkətlər uşaqların əsas özünüifadə üsullarından biridir. Çünki öyrənən şüurlu surətdə tələb olunan hərəkətləri ifa edir. Rəqslər və oyunlar uşaqlardan bir hərəkətdən digərinə keçmək və lazım olan hərəkətləri dayandırmaq bacarığı tələb edir. Musiqili-ritmik hərəkətləri ifa edərkən öyrənənlər böyük həvəslə musiqini oyunların hərəkəti ilə birləşdirirlər, musiqi ilə oxuyub-oynayırlar.

Bu zaman onlarda ardıcıllıq müşahidə olunur: uşaqlar musiqini dinləyir, mövzunu təhlil edir, rolları aralarında bölürlər. Bu da onları yaratmağa, fikirləşməyə, fantaziya qurmağa vadar edir, yəni uşaqlarda əqli inkişaf baş verir. İncəsənətin başqa növləri kimi musiqinin də biliyi artırmaqda böyük rolu vardır. Musiqi təhsili ümumi mədəniyyətin inkişafına, əxlaqi-mənəvi dəyərlər formalaşmasına mühüm təsir göstərir. Müxtəlif tapşırıqları yerinə yetirməsində uşaqlardan diqqətli olmaq, fikri cəmləşdirmək və s. kimi keyfiyyətlərin inkişafı tələb olunur. Belə ki, ifa olunan musiqini dinləyərkən uşaqlarda mahnının bədii obrazı yaranır və bu obraz musiqidə, rəqsdə əks etdirilir. Uşaqları müxtəlif emosional obrazlı əsərlərlə tanış etdikdə biz onları yaxşı mənada həyəcanlandırırıq.

Bundan əlavə musiqi əxlaq və mənəvi keyfiyyətləri tərbiyə edir. Tərbiyə məsələlərini həll etməkdə xorla oxuma, rəqslər, oyunlar daha mühüm yer tutur. Vətən haqqında musiqi əsərləri uşaqlarda vətənə, xalqa, torpağa məhəbbət hissi aşılayır, onlara daha yaxından təsir edir və onları doğru yola çəkir. Məsələn, A. Zeynallının "Ölkəm" əsərini dinlədikdə uşaqlarda vətənə məhəbbət, qürur hissi artır. Beləliklə, gördüyümüz kimi musiqi inkişafı uşaqların fəal musiqi fəaliyyətində formalaşır. Belə ki, emosiyanın inkişafı, musiqini duyma, hiss etmə qabiliyyəti və digər musiqi qabiliyyətləri, fəal musiqili fəaliyyətlər (dinləmə, oxuma, rəqs etmə) nəticəsində əmələ gəlir.

Təlim-tərbiyə işinə müasir yanaşma bu prosesə yenilik gətirilməsinə yönəldilməlidir ki, bu da bu günkü həyat və fəaliyyətin dinamik xüsusiyyətlərindən, müxtəlif təlim texnologiyalarının spesifikasından asılıdır. Musiqi təlim-tərbiyəsini yalnız musiqi məşğələlərinin cəlbedici xarakter daşıdıqda və musiqinin qavranılması prosesinin emosional gərginlik və maraq abu-havasını yaratdıqda həyata keçirmək olar.

Gündəlik həyatdan biz müşahidə edirik ki, bu günün uşaqları hətta 30 il öncəkilərdən çox fərqlənir. Onlar müasir "kasetlərdən", televiziya və radio, sosial şəbəkələrdən daha sərbəst, erkən yaşlardan istifadə edirlər. Təlim-tərbiyə işi ilə məşğul olan öyrədənlər bunu nəzərə almalıdır və müasir həyatla ayaqlaşmanı bacarmalıdır. Belə ki, I-IV siniflərdə müasir musiqi öyrədəni sintezatorda ifa etməyi, minus yazılardan və müxtəlif səsötürücülərdən (CD-çalğıçı, kolonka, karaoke və s. qurğulardan) istifadə etməyi baçarmalıdır. Lakin bu işin texniki tərəfidir.

Bundan başqa, müxtəlif müasir pedaqoji metodikalar və texnologiyalardan da istifadə etmək vacibdir. Uşağı necə musiqiyə yönəltmək, musiqi sənətinə qarşı marağı neçə inkişaf etdirmək, musiqini anlamağı və onun barəsində düşünməyi necə öyrətmək, özünü ifadə etmə qabiliyyətini necə inkişaf etdirmək və s. kimi problemləri yalnız pedaqoji texnologiyaların köməyi ilə həll

etmək olar ki, bu texnologiyalar öyrədənin şəxsiyyətinin mənəvi-yaradıcılıq potensialının inkişafına qulluq etməlidir.

I-IV siniflərdə musiqi pedaqogikası hələ yeni texnologiyalardan kənar qalmışdır. Bu onunla izah olunur ki, bir-çox yeni texnologiya və konsepsiyalar (inkişafedici təlim, modul təlimi, evristik təlim və s.) kiçikyaşlı məktəblilər üçün nəzərdə tutulmuşdur. Lakin məktəbəqədər təlim-tərbiyə sistemində də dəyişikliklər asta olsa da baş verir.

Yeni pedaqoji konsepsiyalardan biri müasir innovasiyalı metodlara (sağtərəfli və soltərəfli metodların birləşməsinə, əsaslanır. Tədris ocaqlarında (MTO) musiqi tərbiyəsinin həyata keçirilməsinə istiqamətlənmişdir. Tərbiyə prosesinin strategiyasının əsas məzmunu — nəticə-məqsədlərə nail olmadır: ahəngdar inkişaf etmiş, yaradıcı və istedadlı şəxsiyyətin tərbiyəsi. Bu yeni konsepsiyanın əsasını aşağıdakılar təşkil edir: intuisiya, kifayət qədər mürəkkəb anlayışların və təlim informasiyasının emosional-obrazlı tərzdə, yüngül, əyləncəli və fantaziyalı oyun-səyahət formasında verilməsi, təhsil + əyləncə + maraq prinsipinə əsaslanma.

Sonralar bu soltərəfli təlimə sağtərəfli problemli metod əlavə olunmalıdır ki, o, bilikləri hazır verməyə deyil, idraka, fəaliyyətə, fəaliyyətdə həyəcanlanmağa, emosional ixtiralara (proqrama müvafiq müəyyən bir informasiyanın, anlayışların), "ixtira oyununa" istiqamətlənmişdir. Öyrədən hazır informasiyanı uşağın ağlına salmaqla məşğul olmamalıdır, o, eyni zamanda əks əlaqə quraraq uşaqları bu informasiyanı müstəqil əldə etməyi öyrətməlidir — budur müasir təlim proqramların əsas prinsiplərindən biri.

Musiqi tərbiyəsinin metodları müxtəlifdir. Onlar musiqi fəaliyyətinin müxtəlif növlərinin xarakterindən, şəraitindən asılıdır. Müasir pedaqogikada əsas metodlar bunlardır: a) İnandırma; b) Alışdırma; c) Çalışdırma [3].

İnandırma — bu metodla tərbiyə prosesi bilavasitə musiqi ilə əlaqədardır. Musiqinin ifası aydın, ifadəli, təsirli olmalıdır. Ancaq bu zaman uşaqlarda estetik və emosional cavab formalaşdırmaq olar. Deməli, musiqinin ifadəli ifa olunması musiqi əsərinin xüsusiyyətlərinin dinləyiciyə çatması üçün əsas şərtidir. İfa etmə ifadəli, asan, əlverişli olsun deyə əsəri yaxşı bilmək, məzmunlu, ətraflı düşünmək, xarakterini təsəvvür etmək, əhval-ruhiyyəsini duymaq lazımdır. Buna əsərin çoxlu çalınması kömək edər. Düşüncəli ifa etmə öyrənənləri güclü təsir edir, onlarda müxtəlif hisslər oyadır. Onlar mütləq bilməlidirlər ki, musiqi nədən bəhs edir. Oxu zamanı hansı tələbləri, hərəkətləri yerinə yetirmək lazımdır. Anlayaraq mövzunun məzmunu, musiqinin ifadə vasitələrini izah etməklə inandırmaq lazımdır.

Alışdırma və çalışdırma metodları – musiqiyə estetik münasibət üçün uşaqlara aktiv hərəkət etməyi, diqqətlə musiqiyə qulaq asmağı, səslənmənin xarakter xüsusiyyətlərini müqayisə etməyi və bir-birindən ayırmağı, musiqinin incəliklərini duymağı öyrətmək lazımdır. Bu iş ildən-ilə, gündən-günə ardıcıllıqla aparılır. Uşaqlarda musiqiyə estetik münasibəti aşılayarkən musiqi rəhbəri çoxlu səy, səbir və inad göstərməlidir.

Beləliklə, musiqi tərbiyəsinin düzgün istiqamətdə həyata keçirilməsi uşaqların əxlaqi-mənəvi dəyərlərinin qidalanmalarını, şəxsiyyətinin formalaşmasını və musiqi qabiliyyətlərinin inkişafını müəyyənləşdirir. Burada musiqi öyrədənin savadlı olması, yeni texnologiya və metodikalarla silahlanması böyük rol oynayır.

Şəxsiyyətin hərtərəfli inkişaf etməsi üçün onun yüksək bədii zövqə və mədəni vərdişlərə, əxlaqi-mənəvi dəyərlərə yiyələnmələri, estetik cəhətdən formalaşmaları vacibdir. Böyüməkdə olan nəslin tariximizə, adət və ənənələrimizə, insani keyfiyyətlərə, xalqa, millətə məhəbbət

ruhunda tərbiyə edilməsində incəsənətin bütün növləri kimi musiqinin də xüsusi rolu vardır. Ailədə başlayan əxlaqi-mənəvi tərbiyə I-IV siniflərdə davam etdirilir. Hərtərəfli inkişaf etmiş, yüksək bədii zövqlü, kamil insan yetişdirilməsinin bünövrəsi – məhz uşaq bağçasında qoyulur. Deməli, böyüməkdə olan nəslin bədii zövqünün formalaşmasının ilkin mərhələsi məktəbəqədər tərbiyə müəssisələrində qoyulur, sonralar məktəbin I-IV siniflərində inkişaf etdirilir.

Musiqinin insanın əxlaqi-mənəvi tərbiyəsinə böyük təsiri vardır. Onun ecazkar qüvvəsi insanın müxtəlif anlardakı hisslərinə təsir etmək bacarığına malikdir çünki, insanın həyatı, sevinci və qəmi musiqidə əks olunur.

Musiqi, həmçinin insan hisslərinin bölüşməsində də əvəzolunmazdır. Belə ki, musiqi əsəri bir insan tərəfindən yaradılır, lakin bu musiqi başqa qəlblərə də yol tapa bilir. Hər bir əsərin də özünəməxsus musiqi dili vardır. Bəstəkar ətraf mühitə öz münasibətini bildirərək, onu rəngarəng musiqi dili ilə (yəni melodiyası, ritmi, harmoniyası və s. ifadə vasitələri ilə) “izah” etməyə çalışır. Bu da bütün dinləyicilərə müxtəlif cür təsir edir.

Musiqi incəsənəti insan hisslərinə təsir etmək, onu düşündürmək, xarici aləmi dərk etmək kimi xüsusiyyətlərə malikdir. Öyrənənlərin I-IV siniflərdə ətraf aləm, Vətənimiz, xalqımız və s. haqqında müəyyən biliklərə yiyələnməklə yanaşı, bütün bunların musiqidə vəsf edilməsi ilə də tanış olurlar.

**1. Musiqi məşğələlərində** öyrənənlərin musiqi mədəniyyəti, istedadı və bacarığı üzə çıxır. Məşğələnin sistematik, cəlbedici və maraqlı keçirilməsi öyrənənlərdə davamlı **diqqət, tez qavrama, təfəkkür, çeviklik** tələb edir. Bu cür qabiliyyət və bacarıqları formalaşdırıb inkişaf etdirmək üçün müəyyən vərdişlər aşılanmalıdır. Uşaqların əqli keyfiyyətlərinin formalaşmasında, fiziki tərbiyəsində musiqi əsas vasitələrindən biridir.

**2. Musiqi öyrənənin hərtərəfli inkişafına kömək edir.** Musiqi tərbiyəsi üçün onlarda musiqini dərk etmə qabiliyyətini inkişaf etdirmək (yəni musiqini dinləməyi adət etdirmək) lazımdır. Musiqini qavrama qabiliyyəti mahnının öyrədilməsi, oyunun aparılması və s. məşğələlərdə inkişaf etdirilir. Belə məşğələlər uşaqların musiqi təəssüratlarını zənginləşdirir və onlara zövq verir. Musiqi dinləmə uşaqlarda dərketməni, emosional həssaslığı inkişaf etdirir. Bu vaxt musiqi haqqında ilk təsəvvürlər toplanır, uşaqlar musiqi əsərlərinin məzmununa, xarakterinə, ifadəliliyinə görə əsərləri yadlarına salmağı və bunları fərqləndirməyi başlayırlar. Bu məziyyətlər öyrənənlərdə əxlaqi-mənəvi dəyərləri duymağa kömək edir.

I-IV siniflərdə öyrənənlərin əxlaqi-mənəvi tərbiyəsi və təlimi prosesində estetik baxımdan cəlbedici, yadda qalan metodlardan, o cümlədən interaktiv təlim metodlarından istifadə edilməsi zəruridir. Bu metodların tətbiqi öyrənənin müstəqil fikir söyləmək, başqaların fikrinə münasibət bildirmək, çoxluğun qərarını qəbul və ya inkar etmək, ya da öz qərarı üstündə durmaq kimi xüsusiyyətlərin inkişaf etdirilməsinə şərait və müstəqil, çevik olmasına və tənqidi təfəkkürünün inkişaf etməsinə zəmin yaradır. Bu zaman öyrənənin əxlaqi keyfiyyətləri, estetik tərbiyəsi – bədii zövqü inkişaf edir.

Musiqi tərbiyəsi prosesində uşaqlar müxtəlif fəaliyyətlərlə əlaqədar müəyyən bilik və bacarıqlara yiyələnirlər. Sadə oxumaq, musiqi — ritmik vərdişlərin təlimi müəyyən sistematik mümarisə alınmış bacarığı möhkəmləndirməyi tələb edir. Bu prosesdə uşaqlarda tədricən musiqi təsəvvürləri toplanır, onlar musiqi əsərləri ilə tanış olur və müəyyən vərdişləri mənimsəyirlər. Bu fəaliyyət prosesində fərdi maraq, meyl aşkara çıxır, uşaqların musiqi qabiliyyətləri aydınlaşır və inkişaf edir. Uşaq marağının və ehtiyacının maksimal dərəcədə ödənilməsi əxlaq

və mənəviyyat və **estetik tərbiyənin vəzifəsidir**.

**3. Musiqi tərbiyəsi** – adından göründüyü kimi, tərbiyəvi prosesdir. Belə ki, öyrədən musiqi təcrübəsinin toplanmasına, elementar musiqi məlumatlarının verilməsinə, bilik və vərdişlərin aşılanmasına kömək edir.

Musiqi tərbiyəsi yalnız məşğələlərlə həyata keçirilmir. Müxtəlif fəaliyyət növlərinin – mahnı oxuma, oyun və rəqslərin gündəlik həyata tətbiq olunması uşağın ümumi musiqi inkişafına kömək edir. Musiqini başqa növ fəaliyyətlərə də (əmək, idman məşğələlərində, müxtəlif oyunlar keçirilərkən və s. zamanı) müxtəlif tərzdə daxil etmək olar.

I-IV siniflərdə öyrənənlərin yaş səviyyəsini, onun psixoloji xüsusiyyətlərini, orqanizmlərinin ümumi inkişafını nəzərə alaraq **musiqi tərbiyəsində** aşağıdakı **vəzifələr** əsas tutulur:

1. Musiqiyə maraq və sevgi tərbiyə etmək;
2. Müxtəlif, rəngarəng musiqi əsərləri ilə tanış etməklə uşaqların musiqi dünyagörüşünü artırmaq;
3. Öyrənənləri sadə musiqi anlayışları ilə tanış etmək. Mahnı oxuma, musiqi dinləmə, musiqili-ritmik hərəkətləri yerinə yetirmə, müxtəlif musiqi alətlərində çalmaq kimi vərdişləri inkişaf etdirmək;
4. Öyrənənlərin musiqi ritmini, düzgün eşitmə qabiliyyətini, ifadəli mahnı oxuma və hərəkətlərin düzgün ritmik yerinə yetirilməsini inkişaf etdirmək;
5. Musiqi əsərini sadə, təbii ifa etməklə oxu və hərəkət vərdişlərini tərbiyə etmək;
6. Musiqi əsərlərinin seçilməsi və qiymətləndirilməsi baxımından alınmış ilk təəssüratlar əsasında musiqi haqqında təsəvvürlərin yaranmasına kömək etmək;
7. Musiqi fəaliyyətində yaradıcı fəallığı inkişaf etdirmək. Oyun və rəqslərdə, mahnı oxuma və musiqi alətlərində çalmada, improvizasiya və ritmik hərəkətlərdə xarakterik obrazları təcəssüm (təsvir) etdirməyi bacarmaq.
8. Musiqi dərslərində toplanan nəticələrin hər birində görülən işlərin öyrənənlərin əxlaq və mənəviyyatyönlü təhsil və tərbiyə işlərinə yönəltmək.

Harmonik inkişaf, mənəvi saflıq, həyata və sənətə estetik münasibət ayrılmaz şəxsiyyətin formalaşması üçün zəruri şərtlərdir. Bu məqsədə çatmaqda uşaqların düzgün musiqi tərbiyəsi böyük ölçüdə kömək edir.

Musiqi öyrənənin əxlaqi-mənəvi-estetik tərbiyəsi vasitəsidir. Estetik tərbiyə məktəbəqədər uşaqların gözləri ilə dərk etmək, hiss etmək və dərk etmək, yaxşı və pisi görmək, yaradıcı müstəqil fəaliyyət göstərmək, müxtəlif bədii fəaliyyət növləri ilə məşğul olmaq bacarıqlarını inkişaf etdirməyə yönəldilmişdir.

Musiqi uşağın əxlaqi-mənəvi xarakterinin formalaşması vasitəsidir. Musiqinin təsiri bəzən inandırma və ya istiqamətləndirmədən daha güclü olur. Öyrənənləri müxtəlif emosional obrazlı məzmunlu əsərlərlə tanış etməklə biz empatiyanı təşviq edirik. Musiqinin qavranılmasından yaranan müxtəlif hisslər uşaqların təcrübələrini, mənəvi dünyasını zənginləşdirir. Musiqi dərsləri öyrənənlərin davranışının ümumi mədəniyyətinə təsir göstərir. Müxtəlif tapşırıqların, fəaliyyət növlərinin (mahnı oxumaq, musiqi dinləmək, uşaq alətlərində ifa etmək, musiqiyə keçmək) növbələşməsi uşaqlardan diqqət, zəka, reaksiya sürəti, təşkilatçılıq, könüllü səylərin təzahürü tələb edir.

Musiqi uşağın zehni qabiliyyətlərini aktivləşdirən bir vasitədir. Müəllimin suallarına cavab verərək, musiqi əsərini dinlədikdən sonra uşaq ilk ümumiləşdirmə və müqayisələr aparır.

Estetik qiymətləndirmənin bu ilk cəhdləri aktiv psixi fəaliyyət tələb edir.

Musiqi koqnitivdir. I-IV siniflərdə yeni ideyalarla zənginləşdirən həyat hadisələrini əks etdirir. Eşitmə reseptoru tərəfindən qəbul edilən musiqi bütün insan bədəninin ümumi vəziyyətinə təsir göstərir, qan dövranı və tənəffüsdə dəyişikliklərlə əlaqəli reaksiyalara səbəb olur. Oxumaq səs aparatını inkişaf etdirir, səs tellərini gücləndirir və nitqi təkmilləşdirir (loqopedlər kəkələməni müalicə etmək üçün oxumaqdan istifadə edirlər). Düzgün oxuma duruşu nəfəs almağı tənzimləyir və dərinləşdirir. Ritmik məşqlər uşağın duruşunu və koordinasiyasını yaxşılaşdırır. Musiqi alətlərində ifa etmək ritm hissini inkişaf etdirməyə kömək edir, uşaqları birləşdirir, empatiyaya öyrədir.

Musiqi dərslərində görülən işləri əxlaq və mənəviyyatyönlü təhsil və tərbiyə sahəsinə tətbiq etmə şəxsiyyətinin hərtərəfli inkişafına kömək edir. Emosional həssaslıq və musiqi üçün inkişaf etmiş bir qulaq öyrədənlərə əlçatan formalarda xoş hisslərə və hərəkətlərə cavab verməyə imkan verir, zehni fəaliyyəti aktivləşdirməyə kömək edir və daim hərəkətlərini təkmilləşdirərək, öyrənənlərin fiziki cəhətdən inkişaf etdirəcəkdir. III sinifdə konkret bir dərsə nümunəsinə diqqət yetirək [2].

**Azərbaycan musiqisi və qırx dörd günlük müharibədə Qələbə**

**İş üsulu:** Beyin həmləsi, qəlbə, ruha təsir, müzakirə, müqayisə

**Dərsin mərhələləri:**

**1. Motivasiya- 3 dəq**

Problem vəziyyəti yaratmaq üçün öyrənənlər keçən dərsdə öyrəndikləri mahnını xorla oxuyurlar. Bundan sonra "Qələbə" — Azərbaycan qəhrəmanlarının rəşadət gününə həsr olunan mahnının təranələri altında rəqsə başlanır. Öyrədən öyrənənlərə sual verir:

— Uşaqlar, "Qələbə günü" haqqında nə bilirsizniz?

— Qələbə gününə həsr olunmuş hansı musiqi əsərlərini tanıyırsınız ?

Öyrənənlər suallara cavab verirlər. Sonra tədqiqat sualı verilir.

**Tədqiqat sualı**

— Qələbə gününə həsr olunmuş mahnı və rəqslər digər musiqilərdən nə ilə fərqlənir?

**2. Tədqiqatın aparılması – 8 dəq.**

Öyrədən öyrənənlərdən "Qələbə günü" ilə əlaqədar hansı mahnıları bildiklərini soruşur. Mahnıların adları məlum olandan sonra həmin musiqi nümunələri ilə əlaqədar tapşırıq verilir.

**Tapşırıq:** Dinlənən musiqi nümunələri, lent yazıları, rəqs hərəkətlərini göstərən videokasetlər.

**3. İnformasiya mübadiləsi və müzakirə - 10 dəq.**

Şən, bayram əhval-ruhiyyəli musiqi nümunələrində istifadə olunan musiqi ifadə vasitələri yada salınır və bir-biri ilə əlaqələndirilir.

**4. Nəticə və ümumiləşdirmə - 3 dəq.**

Şən, bayram əhval-ruhiyyəli musiqi nümunələrində oxşar ifadə vasitələrindən istifadə olunur.

**5. Yaradıcı tətbiqetmə - 15 dəq.**

Musiqisi qələbə marşı ilə öyrədilir.

Öyrənənlər qələbə əhval-ruhiyyəli mahnı oxuyur və ya bildikləri Azərbaycan xalq rəqslərindən birinin təranələri altında rəqs edirlər.

**Tapşırıq:** İfa olunan mahnılara ritmik müşayiət yaradın.

**6. Qiymətləndirmə və ya refleksiya - 6 dəq.**

Dərs ümumiləşdirilir:

— Bu dərsdə Qələbə günü ilə əlaqədar dinlədiyimiz və ifa etdiyimiz musiqi nümunələri hansılardır?

— Dinlənilən musiqi nümunələrinin müəlliflərinin adını söyləyin.

— Şuşaya, qələbəyə həsr olunan mahnı oxuyun.

Musiqi şəxsi ahəngdar inkişafın ən mühüm vasitələrindən biridir. Musiqi sənətinə xas olan ruhun və bədənin tərbiyəsi üçün nə qədər böyük imkanların olduğu pedaqogikada çoxdan məlumdur. Hətta, qədim Yunanıstanda belə bir fikir formalaşmışdı ki, musiqi gözəlliyin əsas Harmoniyadır. Platon və onun davamçıları hesab edirdilər ki, "... musiqi təhsili ən vacib şey hesab edilməlidir: Ritm və Harmoniya ruhda dərin kök salır, ona sahib çıxır, onu gözəlliklə doldurur və insanı gözəl düşünməyə vadar edir... onlar və həyatlarını onunla əlaqələndirirlər".

Bu gün musiqi təhsilinin aktuallığı hər zamankından daha çox artır, çünki daim dəyişən, gözlənilməz, aqressiv bir dünyada, real ünsiyyətin tez-tez virtual ünsiyyətlə əvəz olunduğu bir dünyada müasir insanın emosional özünün yolunu tapmaq çox vacibdir. Emosional sferaya təsir göstərmək üçün unikal xüsusiyyətlərə malik olan musiqi sənəti uşağın daxili dünyasının inkişafı, yaradıcılıq potensialının üzə çıxarılması və şəxsiyyətinin həqiqətən hərtərəfli, o cümlədən, əxlaq və mənəviyyatyönlü təhsil və tərbiyəsi üçün təəccüblü dərəcədə incə və eyni zamanda təsirli vasitədir.

Bir insanın musiqi və yaradıcılıq tərbiyəsi, onun təbii musiqi qabiliyyətinin inkişafı təkcə estetik tərbiyəyə aparan yol və ya mədəniyyət dəyərlərinə bələd olmaq yolu deyil, həm də öyrənənlərin ən müxtəlif qabiliyyətlərini inkişaf etdirməyin təsirli yoludur. Onların mənəvi xoşbəxt həyatına və bir şəxsiyyət kimi özünü dərk etməsinə aparan yoldur. Bu baxımdan, musiqi təhsili və tərbiyəsinin ilkin mərhələsi xüsusi aktuallıq qazanır, bu prosesdə hər bir öyrənəndə musiqiyə öz yolunu açmaq və onun köməyi ilə onların mümkün olmayan potensial qabiliyyətlərinin inkişafına xidmət edir.

Beləliklə, musiqi fənlərində görüləcək işlərin rəngarəngliyi, məzmundan əxlaqi-mənəvi ideyanın çıxarılması, mənimsəmənin keyfiyyəti xeyli yüksəlir, ruhun intensivliyi artır. Qazanılan qabaqcıl təcrübələrdən əldə olunan elmi qənaətlər öyrənənlərin əxlaqi-mənəvi dəyərlərinin mınimsənilməsinə təsir effektivliyinə və perspektivliyinə optimal zəmin yaradır.

**Problemin aktuallığı.** Təhsil insanın əxlaqi və mənəvi dəyərlərini formalaşdırır, onu cəmiyyətin bir üzvü olaraq inkişaf etdirir. Təhsil sistemi və mühitin düzgün qurulması, milli və universal dəyərlərin qorunub inkişaf etdirilməsi üçün əsasdır. Bu səbəbdən təhsilsizlik, insanın mənəvi və əxlaqi inkişafına mənfi təsir göstərərək, cəmiyyətə zərər verə bilər.

**Problemin elmi yeniliyi** odur ki, respublikada kiçikyaşlı məktəblilərə müxtəlif fənlər üzrə əxlaq-mənəvi dəyərlərlə bağlı ilkin təsəvvürlər yaradılmış, istifadənin vasitə və metodları müəyyənləşdirilmiş, bu sahədəki işlərin məzmunu və sistemi eksperimentdən keçirilmiş pedaqoji sistemin yaradılmasının səmərəlilik dərəcəsi öyrənilmiş, öyrənənlərdə təlimin nəticələrinin keyfiyyətinə təsiri aşkarlanmış, ən başlıcası xalqın milli ruhu üzrə məlumatlar verilməsinin qayda və qanunları üzə çıxarılmışdır.

**Problemin nəzəri və praktik əhəmiyyəti.** Müasir şəraitdə ibtidai siniflərdə müxtəlif fənlərin tədrisi prosesində əxlaqi-mənəvi dəyərlərin mənimsədilməsi üzrə işin məzmunu nəzəri və

təcrübi aspektdən işlənmiş, öyrənənlərin tədrisi fəaliyyətinin inkişafına yönəli bir sıra ideyaların öyrədilməsinin interaktiv metodları təkmilləşdirilmiş, pedaqoji-psixoloji ideyalar bankı zənginləşdirilmişdir. Tədqiqatın praktik əhəmiyyəti ibtidai siniflərdə interaktiv metodlarla yeni proqram və dərsliklərin, dərs vəsaitlərini hazırlanması üçün yeni ideyalar irəli sürülmüşdür.

**Ədəbiyyat**

1. Allahverdiyeva F., Tağıyeva S. Pedaqogika. Bakı: Elm və təhsil, 2018.
2. Musiqi (I-IV siniflər üçün dərsliklər). Bakı: Şərq-Qərb ASC, 2020; 2021; 2022; 2023.
3. Abbasov A.N. Pedaqogika: Dərslik. Bakı: Mütərcim, 2016, s.360.

**Р.И. Мамедова**

**Внедрение духовного воспитания и человеческих ценностей в предмет музыки**
**Резюме**

В музыкальных уроках рассматриваются различные виды воспитания: трудовое, музыкальное, этическое, духовное, физическое, экономическое и экологическое воспитание. Музыка, особенно в вопросах формирования моральных и духовных ценностей, играет важную роль, так как она знакомит людей с миром, жизнью и человеческими отношениями через язык музыки. Примеры национальной музыки, особенно народные песни и танцы, пропагандируют высокие моральные ценности и этику. Музыкальные занятия проводятся в классах и на массовых мероприятиях, где ученики изучают как азербайджанскую, так и мировую музыку, формируя свою этику и духовность.

Музыкальное воспитание развивает эстетический вкус, творческие способности и моральные ценности у детей. Для этого используются музыкальные занятия, такие как прослушивание музыки, пение песен и ритмичные движения. Кроме того, преподавание музыки осуществляется с использованием современных методик и технологий. Интерес и любовь детей к музыке поддерживают их моральное и духовное развитие.

**R.İ. Mammadova**

**The instillation of spiritual education and human values in the subject of music**
**Summary**

In music lessons, various types of education are addressed: labor, music, ethics, spirituality, physical, economic, and ecological education. Music, especially in instilling moral and spiritual values, plays an important role as it informs people about the world, life, and human relationships through the language of music. National music examples, particularly folk songs and dances, promote high moral values and ethics. Music lessons are taught in classrooms and at public events, where students learn both Azerbaijani and world music, shaping their ethics and spirituality.

Music education fosters aesthetic taste, creativity, and moral values in children. To achieve

this, musical activities such as listening to music, singing songs, and rhythmic movements are used. Moreover, the teaching of music is carried out using modern methodologies and technologies. Children's interest and love for music support their moral and spiritual development.

**Redaksiyaya daxil olub:** 26.11.2024